# AMEA VƏ HEYDƏR ƏLİYEV:
# MƏRKƏZİ ELMİ KİTABXANANIN VİRTUAL SƏRGİSİNDƏ

***Gülşən Akif qızı Rzayeva***

*AMEA Məhəmməd Füzuli ad. Əlyazmalar İnstitutu,*
*Multidissiplinar əlyazmaların tədqiqi şöbəsi*
*mütəxəssis*
*Səbail rayonu, İstiqlaliyyət küç.26*
*gulsen.rzayeva35@gmail.com*

***Açar sözlər:*** *AMEA, inkişaf yolu, elmi kadrlar, yeniləşmə, əldə olunmuş nailiyyətlər*
***Ключевые слова:*** *НАНА, путь развития, научные кадры, инновации, достижения*
***Keywords:*** *ANAS, path of development, scientific personnel, innovations, achievements*

**Xülasə:** Məqalə AMEA-nın Mərkəzi Elmi Kitabxanasının (MEK) 27 mart 2025-ci - Elm Günü münasibətilə "Azərbaycan Milli Elmlər Akademiyası – 80" adlı virtual sərgisinin təşkili haqqındadır. Virtual sərgidə Ulu öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin AMEA haqqında dəyərli fikirləri, Azərbaycan Respublikasında "Elm günü"nün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinin qeyd edilməsi haqqında Sərəncamı yer almışdır.

Bundan əlavə, Akademiyanın tarixi inkişaf mərhələləri, təsis olunması və fəaliyyətinə dair ətraflı məlumatlar təqdim edilmiş və Heydər Əliyev və Elmlər Akademiyası bölməsində Ümummilli liderin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə Akademiyanın fəaliyyətinin intibah dövrü olduğu, ikinci dəfə hakimiyyətə gəlişindən sonra AMEA-nın nüfuzunun, səlahiyyətlərinin və funksiyalarının artırılması sahəsində ciddi addımlar atıldığı qeyd olunmuşdur. Yeniləşmə dövrü bölməsində isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin yüksələn xətlə inkişafı proseslərinə uyğun olaraq, Akademiyanın modernləşməsi, islahatların aparılması işıqlandırılmışdır.

Akademiyanın ayrı-ayrı illərdəki hesabatları, elmi ədəbiyyat, beynəlxalq elmi konfransların materialları, biblioqrafik göstəricilər, soraq-biblioqrafik məlumat kitabları və digər dəyərli nəşrlər sərgidə müxtəlif dillərdə oxuculara təqdim olunmuşdur.

**Резюме:** Статья посвящена организации в Центральной научной библиотеке (ЦНБ) НАНА виртуальной выставки "Национальная Академия Наук Азербайджана-80" по случаю 27 марта 2025 года-Дня науки. На виртуальной выставке представлены ценные идеи великого лидера Гейдара Алиева и Президента Азербайджанской Республики Ильхама Алиева о НАНА, распоряжение Президента Азербайджанской Республики Об учреждении "Дня науки"в Азербайджанской Республике, распоряжение Президента Азербайджанской Республики Ильхама Алиева О праздновании 80-летия Национальной Академии Наук Азербайджана.

Кроме того, была представлена подробная информация об исторических этапах развития, учреждении и деятельности Академии и отмечено, что в 1969-1982 годах, когда Гейдар Алиев и общенациональный лидер в отделении Академии наук возглавляли Азербайджан, деятельность Академии была эпохой возрождения, после второго прихода к власти были предприняты серьезные шаги в области повышения авторитета, полномочий и функций НАНА. А в разделе "эпоха обновления" освещены модернизация Академии, проведение реформ в соответствии с процессами развития нашей страны по восходящей линии под руководством Президента Азербайджанской Республики Ильхама Алиева.

На выставке читателям на разных языках были представлены отчеты академии за отдельные годы, научная литература, материалы международных научных конференций,

библиографические указатели, справочно-библиографические справочники и другие ценные издания.

**Summary:** The article is devoted to the organization of the virtual exhibition "National Academy of Sciences of Azerbaijan-80" in the Central Scientific Library of ANAS on the occasion of March 27, 2025 - Science Day. The virtual exhibition presents valuable ideas of the great leader Heydar Aliyev and President of the Republic of Azerbaijan Ilham Aliyev about ANAS, the decree of the President of the Republic of Azerbaijan on the establishment of the "Science Day" in the Republic of Azerbaijan, the decree of the President of the Republic of Azerbaijan Ilham Aliyev on the celebration of the 80th anniversary of the National Academy of Sciences of Azerbaijan.

In addition, detailed information was provided on the historical stages of the Academy's development, establishment and activities, and it was noted that in 1969-1982, when Heydar Aliyev and the national leader in the Academy of Sciences headed Azerbaijan, the Academy's activities were an era of renaissance, and after coming to power for the second time, serious steps were taken to enhance its authority, powers and functions. NANA. And the "era of renewal" section highlights the modernization of the Academy, the implementation of reforms in accordance with the processes of development of our country in an ascending line under the leadership of President of the Republic of Azerbaijan Ilham Aliyev.

At the exhibition, the Academy's reports for individual years, scientific literature, materials from international scientific conferences, bibliographic indexes, reference and bibliographic reference books and other valuable publications were presented to readers in different languages.

**Giriş:** Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik tarixi, ölkəmizin elmi inkişafının mühüm mərhələlərini əks etdirir. Akademiyanın 80 illik tarixi ərzində böyük, zəngin və şərəfli inkişaf yolu keçmiş və ölkədə elmin inkişafı, elmi-texniki potensialın güclənməsi, yüksək ixtisaslı elmi kadrların hazırlanması, cəmiyyətdə elmi işçilərin nüfuzunun artırılması məqsədilə Ulu öndər Heydər Əliyevin 2001-ci il 15 may tarixli Fərmanı ilə Azərbaycan Elmlər Akademiyasına "Milli Elmlər Akademiyası" statusu verilmişdir. Bu tarixi fərman Azərbaycanda fundamental elmin əldə etdiyi nailiyyətləri, Azərbaycanın sosial-iqtisadi, mədəni və mənəvi təşəkkülündə elmin rolunu, ölkənin ictimai-siyasi həyatında nüfuzunu və akademik elmin suveren Azərbaycan dövlətinin tərəqqisinin təminatçısı olduğunu hər zaman təsdiqləyir. Azərbaycan Milli Elmlər Akademiyasi davamlı elmi ənənələrin qorunub yaşadılması və yeniləşmə proseslərinin daha da genişləndirilməsi yollarında inamlı addımlar atmaqla, Azərbaycan xalqının intellektual potensialının formalaşdırılmasında, elmin müasir tələblərindən irəli gələn strateji istiqamətlərinin müəyyənləşdirilməsində, fundamental və tətbiqi, peşəkar elmi kadrlar nəslinin yetişdirilməsində öz işini layiqincə davam etdirir.

XX əsrin 1920-1945-ci illəri Azərbaycan elminin yaşam salnaməsində yetərincə kiçik dövürdür. Lakin hadisələrin zənginliyi, inkişaf sürəti baxımından əvvəlki bütün tarixdə bu 25 ilin tayı-bərabəri olmamışdır. Mahiyyət etibarı ilə bu illər ərzində elmi potensialı təşkilatı strukturu təşəkkül tapmış, elmi cəmiyyətlər, assosiasiyalar, özəklər, müxtəlif profilli elmi təsisatlar, onların ilk rəhbər və idarəçilik orqanları yaradılmış, əsas tədqiqatçı maraqları formalaşmışdı, ali məktəblərin kafedraları və laboratoriyaları isə elmi-tədqiqat işinin ilk ocaqlarına və elmi kadrları hazırlığının mərkəzlərinə çevrilmişdir [3].

Azərbaycan elminin inkişafı və Respublika Elmlər Akademiyasının təşəkkülü məsələləri bir sıra kollektiv tarixi əsərlərdə şərh olunmuşdur. Təbii ki, bu ümumiləşdirici əsərlərdə respublikanın ilk elmi təsisatların fəaliyyəti yığcam əks olunmuşdur [ 4, s.7].

Azərbaycan Elmlər Akademiyasının- respublikamızda aparıcı elmi mərkəzin fəaliyyətinin ayrı-ayrı mərhələləri, elmin təşəkkülünün və inkişafının ümumi məqamları mədəni quruculuq tarixinə dair müstəqil istiqamət olaraq formalaşmış geniş monoqrafik tədqiqatlarda işıqlandırılmışdır. Azərbaycanda, öz təqiqatlarını respublikada mədəni quruculuq məsələlərinə həsr etmiş görkəmli alimlər məktəbi təşəkkül tapmışdır.

Ölkənin ayrı-ayrı regionları üzrə tarixi materialın toplanılması tədqiqatçılara ümumrusiya miqyasında sanballı əsərlər yazmağa imkan vermişdir.

1940-1990-cı illərdə respublikada elmin ayrı-ayrı sahələrinin inkişafi haqqında xeyli məqalə və kiçik kitabçalar nəşr olunmuşdur [6]. Onların müəllifləri bir qayda olaraq peşəkar elm tarixçiləri deyil, biliyin bu və ya digər bilik sahəsində – fizika-riyaziyyat, astronomiya və energetika, kimya, neft-kimya, biologiya və kənd təsərrüfatı, tibb, geologiya, coğrafiya, torpaqşünaslıq humanitar və ictimai elmlərdə tanınmış alim-mütəxəsislərdir. 2016-cı ildən başlayaraq AMEA-nın Elm tarixi insitutunun əməkdaşları tərəfindən bəzi elm sahələrinin inkişaf tarixinə həsr olunan ayrıca sənədlər toplular və kitablar nəşr olunmuşdur.

Azərbaycan 1991-ci ildə müstəqillik qazanmasından sonra bir çox sahələrdə olduğu kimi elmdə də dərin böhran yaşamağa başladı. İqtisadi çətinliklər, maliyyə çatışmazlığı və kadr axını elmi fəaliyyətin zəifləməsinə səbəb olmuşdu. Belə bir çətin dövrdə 1993-cü ildə xalqın tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdan Ümummilli lider Heydər Əliyev, elmin və təhsilin inkişafını ölkənin gələcəyi üçün əsas prioritetlərdən biri elan etdi.

AMEA-nın hüquqi və institusional statusunun möhkəmləndirilməsi Heydər Əliyev elmi fəaliyyətin dövlət dəstəyi ilə inkişaf etməli olduğunu vurğulayaraq, AMEA-nın, müstəqil, müasir və çevik bir qrum kimi fəaliyyət göstərməsinə şərait yaratdı. Akademiyanın strukturu yenidən təşkil olundu, sahə institutlarının fəaliyyəti aktivləşdirildi.

Heydər Əliyev elmə yeni nəslin cəlb olunmasını vacib hesab edirdi. Onun təşəbbüsü ilə gənc tədqiqatçılara xaricdə təhsil almaq imkanları yaradıldı, elmi-tədqiqat proqramları həyata keçirildi.

AMEA-nın xarici elmi mərkəzlərlə əlaqələrinin qurulması və Azərbaycan elminin dünyaya inteqrasiyası təşviq edildi. Xarici ölkələrlə ikitərəfli elmi müqavilələr bağlandı. Tarix, ədəbiyyat, dil və mədəniyyət sahəsində tədqiqatlar gücləndirildi. Heydər Əliyev Azərbaycançılıq ideologiyasını elmi cəhətdən əsaslandıran işləri dəstəkləyirdi. Bu istiqamətdə AMEA-nın böyük rolu oldu.

Heydər Əliyevin müstəqillik dövründə Azərbaycan elminin, xüsusən AMEA-nın inkişafına göstərdiyi diqqət və qayğı bu sahənin dirçəlişinə səbəb oldu. Onun yaratdığı elmi-siyasi mühit AMEA-nın müasir elmi mərkəzə çevirilməsini təmin etdi. Hazırda Prezident İlham Əliyevin rəhbərliyi altında bu xətt uğurla davam etdirilir, AMEA-nın inkişafı, elmin innovasiya və rəqəmsallaşması yeni mərhələyə qədəm qoyur.

Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik tarixi-ölkənin elmi potensialının formalaşması, inkişafı və dünya səviyyəsində tanınması baxımından mühüm mərhələlərlə zəngindir. Xüsusilə müstəqillik dövründə, ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti və prinsipial mövqeyi sayəsində AMEA yalnız bir elmi mərkəz kimi deyil, həm də milli dövlətçiliyin möhkəmlənməsində, mənəvi dəyərlərin qorunmasında və gələcəyin intellektual təminatında aparıcı rol oynamışdır.

Respublikada ali təhsilin tarixi daha da yaxşı öyrənilmiş və akademik elmin ali məktəblə əlaqələri, ayrı-ayrı ali təhsil müəssisələrinin tarixinə həsr olunmuş əsərlərində işıqlandırılmışdır. Tədqiqat nöqteyi-nəzərindən mərkəzi və yerli statistika qurumlarının statistik topluları kimi mənbələr dairəsidə məlumatlandırıcı olmuşdur.

Azərbaycan Elmlər Akademiyasının həyatında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 15 may 2001-ci il tarixli Fərmanı ilə “Azərbaycan Elmlər Akademiyasının statusu haqqında” qərarının qəbul edilməsi yeni bir mühüm mərhələ başlanmışdır. Məhz bu Fərmanla ilk dəfə olaraq ölkəmizin ali dövlət elmi təşkilatına “Azərbaycan Milli Elmlər Akademiyası” statusu verilmişdir [2, s.8-9]. Akademiyanın yeni statusunda ifadə olunmuş “Milli Elmlər Akademiyası” anlayışı ölkə elminin Azərbaycan xalqının milli maraqlarına və müstəqil dövlətçilik prinsiplərinə istiqamətləndirilməsi vəzifələrinin ön mövqeyə çəkilməsini müəyyən etmişdir.

Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasında elmin inkişafını təşkil və təmin edən, dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirən, Azərbaycan Respublikasında elmin inkişafını təşkil və təmin, dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirən, Azərbaycan Res-

publikasını xarici ölkələrdə elmi və elmi-texniki fəaliyyət sahəsində təmsil edən ali dövlət elmi təşkilatıdır. Olduqca əlamətdar bir haldır ki, AMEA-nın 80 illik yubleyi Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpa edildiyi, ölkəmizin regionda və dünyada nüfuzunun yüksəldiyi bir dövrə təsadüf edir.

Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası (MEK) Heydər Əliyev və Azərbaycan dövlətçiliyi şöbəsinin fonduna daxil olan yeni informasiya resurslarının virtual sərgisində Ümummilli lider Heydər Əliyevin şəxsiyyətinin ucalığı, ali insani keyfiyyətləri, həyatı, zəngin və çoxşaxəli irsi, dövlətçilik tariximizdə müstəsna yeri, əbədiyaşar ideyaları haqqında akademik nəşrlər öz əksini tapmışdır. Həmçinin sərgidə Prezident İlham Əliyevin Heydər Əliyev ideyalarına əsaslanan siyasi kursunun öyrənilməsi, təbliğ edilməsi, "Böyük Qayıdış" proqramına siyasi, etik və sosioloji yanaşmalar, modernləşmə xəttində azərbaycançılığa siyasi-sosioloji baxış, postmüharibə dövrünün milli prioritetləri və digər əsərlər təqdim olunmuşdur. Azərbaycan, rus, ingilis və fransız dillərində təqdim olunan nəşrlərdə şanlı Zəfər tariximizi əhatə edən kitablar, Azərbaycanın ayrılmaz parçası olan Naxçıvanın tarixi, ən qədim dövrlərdən zəmanəmizədək Azərbaycan torpaqlarında cərəyan edən tarixi və siyasi proseslərin əks olunduğu dəyərli nəşrlər də yer almışdır.

Bunların sırasında "Əbədi ömrün yüz ili", "Heydər Əliyevin həyatının unikal səhifələri. Böyük şəxsiyyət haqqında düşüncələrim", "Heydər Əliyev və multikultural təhlükəsizlik", "Ulu Öndər Heydər Əliyev xatirələrdə", "Heydər Əliyev: 100 il 100 fotosənəddə", "Ömrün 25 baharı və möhtəşəm məktəb", "Azərbaycan ədəbiyyatında vətən və dövlətçilik məfkurəsinin intibahı: Heydər Əliyevdən – İlham Əliyevə", "Heydər Əliyev və milli mətbuat", "Yeni Azərbaycan Partiyası: Heydər Əliyev dühası və siyasi varislik", "Azərbaycanşünaslığın aktual məsələləri (tədqiqat, elmi diskurs, beynəlmiləlləşmə)", "Heydər Əliyevin siyasi dilinin lüğəti", "Heydər Əliyev. Prezidentlik xronikası: 1993-2003", "İlham Əliyev. İnkişaf-məqsədimizdir", "Böyük Qayıdış: Post müharibə dövründə siyasət və etika məsələləri", "Qarabağın mənəviyyat və fəlsəfə tarixindən səhifələr" və digər əsərlər mövcud idi.

İnteraktiv multimedia və rəqəmsal sərgilərin təşkili demək olar ki, həyatımızda bizi hər yerdə əhatə edir. Müasir dövrümüzdə hər bir insan müxtəlif vasitələrlə təsiri daha əhəmiyyətli hala gələn virtual aləmlə əlaqəyə girir. Heç də yalnış düşüncə olmaz, biz desək ki, bütün fəaliyyət sahələrini - elm, mədəniyyət, biznes, təhsil və s multimedia vasitələri olmadan düşünə bilmərik.

**Ədəbiyyat**


1. Azərbaycan multidissiplinar əlyazması: xəzinədən incilər / red. Həbibbəyli, İ.Ə., - Bakı: Hədəf nəşrləri, - 2017. – 328 s.

2. *Həbibbəyli, İ.* Heydər Əliyev və Azərbaycan Milli Elmlər Akademiyası // 525-ci qəzet. - № 73, - 2023. - 29 aprel.. - s. 8-9.

3. Heydər Əliyev və Azərbaycan elmi: Azərbaycan Milli Kitabxanası, Nəşiriyyat:Şərq-Qərb 2010. s. 424.

4. *Həbibbəyli, İ.Ə.* Müstəqillik dövründə Azərbaycan elmi / [Elektron resurs] https://azertag. az/ xeber/musteqillik_dovrunde_azerbaycan_elmi-1006268

5. *Kərimov, M.* XX əsr Azərtbaycan elmi: Reallıqlar və perspektivlər // Motif Akademi Halkbilimi Dergisi / 2011-1 (Ocak-Haziran) (Azerbaycan Özel Sayısı-I), s.5-11.

6. *Məhərrəmov, A.* Azərbaycan elmi və təhsilində uğurlu islahatların müəllifi // Azərbaycan. - 2011. -11 may. - s. 6.

7. https://azertag.az/xeber/azerbaycan_elminin_inkisafina_dovlet_qaygisi_daha_da_artirilacaqdir_milli_elmler_akademiyasinin_60_illiyine_hesr_olunmus_tenteneli_yigincaqda_azerbaycan_prezidenti_ilham_eliyevin_nitqi-331568